**2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə "AZADLIQ-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinin qeydə alınması və Mərkəzi Seçki Komissiyasının 8 sentyabr 2015-ci il tarixli 17/124 saylı qərarı ilə qeydə alınmış səlahiyyətli nümayəndənin qeydiyyatının ləğv edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının**

**Q Ə R A R I**

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərində "AZADLIQ-2015" siyasi partiyalar bloku səlahiyyətli nümayəndələr təyin etmiş və həmin şəxslərin qeydə alınması üçün müvafiq sənədləri Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim etmişdir.

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası bununla əlaqədar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, həmin şəxslərin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Bundan başqa "AZADLIQ-2015" siyasi partiyalar bloku Mərkəzi Seçki Komissiyasının 8 sentyabr 2015-ci il tarixli 17/124 saylı qərarı ilə səlahiyyətli nümayəndə kimi qeydə alınmış Ağayev Cəmaləddin Daxil oğlunun qeydiyyatının ləğv edilməsini xahiş etmişdir.

Yuxarıda qeyd edilənləri əsas götürərək Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü və 52-ci maddələrinə əsasən **q ə r a r a  a l ı r :**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə aşağıdakı şəxslər "AZADLIQ-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələri kimi qeydə alınsınlar:

Ələkbərsoy Telman Zaman oğlu
İbrahimli Üzeyir Soltan oğlu
İmranova Aytəkin Kapitan qızı
Mahmudov Rövşən Ələsgər oğlu
Məhərrəmov Kamran Knyaz oğlu
Məmmədov Azad Qubad oğlu
Məmmədov Məhərrəm Kərim oğlu
Orucov Günxan Əhməd oğlu
Oruclu Tərxan Əhməd oğlu
Səfərov Ceyhun İlyas oğlu
Vəlibəyli Zöhrab Həmid oğlu

2. "AZADLIQ-2015" siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi kimi qeydə alınmış Ağayev Cəmaləddin Daxil oğlunun qeydiyyatı ləğv edilsin.

3. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| Sədr | Məzahir Pənahov |
| Katib | Arifə Muxtarova |
| Katib | Mikayıl Rəhimov |